**AZƏRBAYCAN RESPUBLİKASI**

**QƏRBİ KASPİ UNİVERSİTETİ**

# MAGİSTR DİSSERTASİYASININ YAZILMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ QAYDALARINA DAİR

## METODİK GÖSTƏRİŞLƏR

**BAKI- 2022**

**QƏRBİ KASPİ UNİVERSİTETİ**

**Tərtibatçı: Rəhinə Nuraliyeva, Gülnarə Məmmədova**

*"Magistr dissertasiyasının yazılması və qiymətləndirilməsi qaydalarına dair" metodik göstərişlər, - Bakı: QKU, - 2022. – 57s.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş qaydalara uyğun olaraq tərtib edilib*

***©Qərbi Kaspi Universiteti, 2022***

# MÜNDƏRİCAT


1. Ümumi müddəalar…………………………………….................. 4
2. Dissertasiya mövzusunun və elmi rəhbərin seçilməsi……….…..... 6
3. Magistrlik dissertasiyasının rəhbərinin vəzifələri…………….. 8
4. Magistr dissertasiyasının yazılması prosesində hesabatlılıq və qiymətləndirmə prosedurları…………………………………....... 8
5. Magistr dissertasiyasının tərtibi……………………………...... 15
6. Dissertasiyanın müdafiəyə hazırlanması və qiymətləndirilməsi. 23
7. Əlavələr…………………………………………………… 28

# 1. ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20 aprel 1998-ci il tarixli əmri ilə təsdiq edilmiş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə”, Qərbi Kaspi Universiteti (bundan sonra – QKU) Magistratura şöbəsinin (bundan sonra – Magistratura şöbəsinin) Əsasnaməsi, QKU-nin rəhbərliyinin və Elmi Şurasının qəbul etdiyi qərarlar, eləcə də digər müvafiq normativ-hüquqi aktların tələbləri əsasında tərtib edilmişdir.

Bu Qaydalar Magistratura şöbəsində ali təhsilin magistratura pilləsi üzrə təhsilalanlar tərəfindən magistr dissertasiyası mövzusunun və elmi rəhbərin seçilməsi, dissertasiyanın hazırlanması və müdafiəyə təqdim edilməsi, eləcə də magistr dissertasiyasının hazırlanması üzrə hesabatların təqdim olunması və onların qiymətləndirilməsi prosedurlarını müəyyən edir.

Bu Qaydaların məqsədi magistr dissertasiyalarının hazırlanması prosedurlarını dəqiqləşdirməklə onların keyfiyyətinin yüksəldilməsindən və qiymətləndirmə proseslərinin obyektivliyinin artırılması mexanizmlərini müəyyən etməkdən ibarətdir.

Qaydalarda istifadə olunan əsas anlayışlar:

**Magistrant** – ali təhsilin magistratura pilləsində təhsil alan şəxs.

**Magistr dissertasiyası** (bundan sonra – dissertasiya) - elmi rəhbərin tövsiyələri əsasında magistrant tərəfindən magistr dərəcəsini almaq üçün yazılan, onun yüksək ixtisaslı peşə fəaliyyətinə və elmi-tədqiqat işlərinə hazırlığını nümayiş etdirən elmi-tədqiqat işi.

Dissertasiyanın yazılmasında məqsəd magistrantın müstəqil tədqiqat aparmaq qabiliyyətini və elmi potensialını inkişaf etdirmək, eləcə də müasir tədqiqat metodlarından istifadə etmək və

ümumiləşdirmələri (sintez) aparmaq bacarığını ortaya çıxarmaqdan ibarətdir.

**Elmi rəhbər** – dissertasiya mövzusunun, təqdiqat obyektinin və predmetinin, tədqiqat metodlarının, tədqiqatın informasiya bazasının və ədəbiyyatın seçilməsi proseslərində, eləcə də dissertasiya planının tərtib edilməsində və tədqiqatın aparılmasında magistranta zəruri tövsiyələri verən, dissertasiya işinin məzmununun qoyulan tələblərə uyğunluğu barədə rəy verən şəxsdir.

Elmi rəhbərin elmi-pedaqoji fəaliyyət sahəsi ilə dissertasiya mövzusu arasında uyğunluğun olması məqsədəuyğun hesab edilir.

Magistrantlara elmi rəhbərlik QKU-nin elmi dərəcəsi olan əməkdaşları ilə yanaşı, elmi dərəcəsi və müvafiq sahədə praktiki iş təcrübəsinə malik olan digər şəxslər tərəfindən də həyata keçirilə bilər.

**Məlumatlandırma** - dissertasiyanın hazırlanması və qiymətləndirilməsi prosesində yaranan məsələlər (dissertasiya mövzusunun və elmi rəhbərin seçilməsi, hesabatların qiymətləndirilməsi, monitorinqlərin keçirilməsi və s. prosedurlar) barəsində magistrantlara və elmi rəhbərlərə məlumatların verilməsi müasir kommunikasiya vasitələrindən (e-mail, sms, sosial şəbəkələr, telefon və s.) istifadə olunmaqla, eləcədə QKU-nin və Kafedraların Elanlar lövhəsində yerləşdirilən, müvafiq qaydada təsdiq olunan sənədlər vasitəsilə həyata keçirilir.

## 2. Dissertasiya mövzusunun və elmi rəhbərin seçilməsi

2.1. Dissertasiya mövzuları aşağıdakı tələblərə cavab verməlidir:

2.1.1. Nəzəri və praktiki baxımdan aktual olmalıdır;

2.1.2. Magistrantın təhsil aldığı ixtisaslaşma istiqaməti üzrə nəzəri-metodoloji və praktiki xarakterli müasir problemlərə həsr olunmalıdır.

2.2. Magistrant dissertasiya mövzusunu və elmi rəhbəri İxtisas kafedrası (bundan sonra - Kafedra) tərəfindən təklif olunan Magistr dissertasiyası mövzularının və elmi rəhbərlərin siyahısından (bundan sonra – Siyahı) seçə bilər.

Siyahı QKU-nin müvafiq kafedralarının təklifləri nəzərə alınmaqla bu Qaydalara Əlavə 1-də verilən formada tərtib edilir və magistratura təhsilinin 1-ci ilinin oktyabr ayının 1-dək magistrantlara təqdim edilir.

2.3. Magistrant Siyahıda olmayan mövzunu da təklif edə bilər.

2.4. Dissertasiya mövzusunun və elmi rəhbərin seçilməsi proseduru aşağıdakı qaydada həyata keçirilir:

2.4.1. Magistrant mövzunu Siyahıdan seçdiyi halda Siyahıda həmin mövzu üzrə elmi rəhbər kimi təklif olunan şəxs, yaxud şəxslərdən biri magistrantın razılığı ilə Kafedra tərəfindən elmi rəhbər kimi qəbul edilir.

2.4.2. Magistrant Siyahıda olmayan mövzu təklif etdiyi halda mövzunun bu Qaydaların 2.1-ci bəndində müəyyən edilən tələblərə uyğunluğu Kafedrada yoxlanılır və müvafiq qərar qəbul edilir. Təklif olunan mövzu müəyyən edilən tələblərə uyğun olmadıqda, Kafedra tərəfindən magistranta yeni mövzunun seçilməsində köməklik göstərilir. Eyni mövzunun iki və ya daha çox magistrant tərəfindən seçilməsinə yol verilmir.

2.4.3. Magistrant tərəfindən Siyahıda adı göstərilməyən elmi rəhbər təklif edildiyi halda təklif olunan elmi rəhbərin bu Qaydaların

1.4.3-cü bəndində qeyd olunan tələblərə uyğunluğu yoxlanılır və bu barədə müvafiq qərar qəbul edilir. Bu məqsədlə, həmin şəxsin elmi adını və elmi dərəcəsini təsdiqləyən sənədlərin rəsmi təsdiqlənmiş surəti, onun işlədiyi təşkilatın rekvizitləri, elmi rəhbərin əlaqə telefonu və e-mail ünvanı barədə məlumatlar ya magistrant, ya da elmi rəhbər kimi təklif olunan şəxs tərəfindən təhsilin birinci ilinin oktyabr ayının 20-dək Kafedraya təqdim edilməlidir. Qeyd edilən məlumatlar gecikdirildikdə və yaxud tam olmadıqda, həmin şəxsin magistrantın elmi rəhbər kimi qəbul edilməsinə yol verilmir və Kafedra tərəfindən magistranta elmi rəhbərin seçilməsində köməklik göstərilir.

2.5. Magistrant maraqlandığı mövzular üzrə ədəbiyyat tədqiqatını (aidiyyəti üzrə müasir elmi kitablar və monoqrafiyalar, elmi məqalələr, konfrans materialları, internet resursları, beynəlxalq təşkilatların tədqiqatları, statistik məlumat bazaları və s.) aparmalı, həmin mövzular üzrə elmi rəhbərliyə namizəd olan şəxsdən zəruri tövsiyələri alaraq seçdiyi dissertasiya mövzusu barədə bu Qaydalara Əlavə 2-də göstərilmiş Dissertasiya təklif formasını noyabrın 1-dək Kafedraya təqdim etməlidir.

2.6. Dissertasiya mövzularının və elmi rəhbərlərin yekun siyahısı magistratura təhsilinin 1-ci ilinin noyabr ayının sonunadək Kafedranın təqdimatı əsasında QKU-nin Elmi Şurasında müzakirə edilir və təsdiq olunması üçün dekabr ayının 10-dək bu Qaydalara Əlavə 3-də verilən formada QKU-nin rəhbərliyinə təqdim edilir.

2.7. Dissertasiya mövzularının və elmi rəhbərlərin yekun siyahısı müəyyən edilmiş qaydada QKU-nin müvafiq əmri ilə təsdiqlənir.

2.8. Müstəsna hallarda (elmi rəhbər vəfat etdikdə, uzun müddətə ölkə xaricinə getdikdə, xəstəliyi ilə əlaqədar uzun müddət işə çıxmadıqda və s.) magistrantın elmi rəhbəri və dissertasiya mövzusu müəyyən edilmiş qaydada dəyişdirilə bilər.

## 3. Magistrlik dissertasiyasının rəhbərinin vəzifələri

3.1. Tədqiqat mövzusunu seçməkdə maqistranta kömək etmək, seçdiyi mövzunu bütün müsbət və mənfi cəhətləri izah etmək;

3.2. Dissertasiya planını tərtib etməyə kömək etmək;

3.3. İşin strukturu və məzmunu, metodiki tövsiyələrin öyrənilməsi ilə bağlı tövsiyələr vermək;

3.4. Seçilmiş mövzu haqqında məlumat mənbələrinə, onların işlənməsi və təqdim edilməsi yollarına məsləhət verin;

3.5. Buraxılış işi gedişatına nəzarət etmək, QKU-nin müəyyən edilmiş tələblərə uyğunluğunu yoxlamaq;

3.6. Materialı öyrənmək və təkmilləşdirmək üçün tövsiyələr vermək;

3.7. Kafedra və dekanlıq tərəfindən təsdiq edilmiş vaxtda məsləhətləşmələr aparmaq;

3.8. Tələbələri dissertasiya müdafiəsinə hazırlamaq: onların natiqlik bacarıqlarını qiymətləndirmək, məruzə etmək, təqdimat etmək, təkmilləşdirməyə dair məsləhətlər vermək;

3.9. Məzunların dissertasiya işinin yazılması baxımından uğurları barədə kafedra müdirinə və dekanlığa məlumat vermək.

## 4. Magistr dissertasiyasının yazılması prosesində hesabatlılıq və qiymətləndirmə prosedurları

4.1. Magistrant magistratura təhsilinin 2-ci ilinin hər semestrində iki dəfə olmaqla dissertasiya üzrə görülmüş işlər barədə elmi rəhbərə dörd hesabat (uyğun olaraq I, II, III və IV hesabatlar) təqdim edir.

4.2. Hər bir hesabat elmi rəhbər tərəfindən bu Qaydalara Əlavə 4, Əlavə 5, Əlavə 6 və Əlavə 7-də verilən müvafiq meyar göstəriciləri əsasında qiymətləndirilməlidir. Hesabatlar üzrə yekun qiymət meyar göstəriciləri üzrə verilən balların cəmi kimi hesablanır. Hər bir göstərici üzrə qiymətləndirmə 10 ballıq şkala üzrə aparılır.

4.2.1. I və II hesabatlar üzrə yekun qiymətlərin cəmi

“Tədqiqatlar, kommunikasiya və innovasiya” qaydalarının, III və IV hesabatlar üzrə yekun qiymətlərin cəmi isə “Tədqiqat işinin aparılması” qaydalarının yekun göstərici kimi qəbul edilir.

4.2.2. Hesabatların qəbulunda ardıcıllığa riayət olunmalıdır: daha əvvəlki hesabat verilmədiyi halda növbəti hesabatların elmi rəhbər və Kafedra tərəfindən qəbulu və qiymətləndirilməsinə yol verilmir.

4.2.3. Hesabatları bu Qaydalarla müəyyən edilmiş vaxtlarda təhvil verməyən vəya hər hansı bir hesabat üzrə qiymətləndirmənin nəticəsi 17 baldan, yaxud bu Qaydaların 3.2.1-ci bəndində qeyd olunan fənlərdən hər hansı biri üzrə qiymətləndirmənin yekun nəticəsi 51 baldan az olan magistrantın həmin fənn üzrə akademik borcu yaranır.

4.3. Hesabatlar üzrə əsas tələblər aşağıdakılardır:

4.3.1. Hesabatlar 14 ölçülü Times New Roman şrifti ilə, sətirarası məsafə 1,5 olmaqla, sol kənardan 3 sm, yuxarı və aşağıdan 2 sm, sağ tərəfdən isə 1,5 sm boş yer saxlanılan A4 vərəqdə yazılır. Hesabatın səhifə nömrələri vərəqlərin aşağı sağ küncündə qeyd olunur. Hesabatların həcmi 5-7 səhifə həcmində olmalıdır.

4.3.2. I hesabat aşağıdakı ardıcıllıq üzrə hazırlanmalıdır:

- dissertasiya işinin ilkin planı;
- istifadə olunacaq ədəbiyyatın ilkin siyahısı;
- tədqiqat zamanı istifadə olunacaq metodlar barədə məlumat.

Magistrant I hesabatı magistratura təhsilinin ikinci ilinin əvvəlindən oktyabrın 15-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər bu Qaydalara Əlavə 4-ə uyğun hazırlanan Magistr dissertasiyası üzrə I hesabatın qiymətləndirilməsi blankında verilən meyar göstəriciləri əsasında qiymətləndirməni aparmalı, həmin hesabatı imzalamalı və oktyabrın 25-dək Kafedraya təqdim etməlidir.

4.3.3. II hesabat aşağıdakı ardıcıllıq üzrə hazırlanmalıdır:

- mövzunun aktuallığı;

- problemin qoyuluşu və öyrənilmə səviyyəsi;

- tədqiqatın məqsəd və vəzifələri;

- tədqiqatın nəzəri-metodoloji əsasları;

- istifadə olunacaq tədqiqat metodunun seçiminin əsaslandırılması;

- tədqiqatın gözlənilən elmi və praktiki nəticələri;

- bu hissənin yazılması üçün istifadə olunmuş ədəbiyyat siyahısı.

Magistrant II hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsinimagistratura təhsilinin 2-ci ilinin dekabrın 15-dək elmi rəhbərə təqdim etməlidir.

Elmi rəhbər bu Qaydalara Əlavə 5-ə uyğun hazırlanan Magistr dissertasiyası üzrə II hesabatın qiymətləndirilməsi blankında verilən meyar göstəriciləri əsasında qiymətləndirməni aparmalı, həmin hesabatı imzalamalı və dekabrın 25-dək kafedraya təqdim etməlidir.

4.3.4. III hesabat aşağıdakı başlıqlar üzrə hazırlanmalıdır:

- seçilmiş tədqiqat metodlarının tətbiqi üçün informasiya bazası;

- tədqiqat metodunun tətbiqi ilə aparılan təhlil;

- tədqiqatın məhdudiyyətləri;

- təhlilin nəticələri;

- bu hissənin yazılması üçün istifadə olunmuş ədəbiyyat siyahısı.

Magistrant III hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini magistratura təhsilinin 2-ci ilinin fevralın 15-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər bu Qaydalara Əlavə 6-ya uyğun hazırlanan Magistr dissertasiyası üzrə III hesabatın qiymətləndirilməsi blankında verilən meyar göstəriciləri əsasında qiymətləndirməni aparmalı, həmin hesabatı imzalamalı və fevralın 25-dək kafedraya təqdim etməlidir.

4.3.5. IV hesabat aşağıdakı başlıqlar üzrə hazırlanmalıdır:

- aparılmış tədqiqat nəticəsində alınan əsaslandırılmış arqumentlər və mülahizələr;

- dissertasiyanın qoyulmuş probleminin həlli istiqamətində təkliflər və tövsiyələr;

- əldə edilmiş nəticələrin elmi və praktiki əhəmiyyəti;

- nəticələrin mümkün tətbiq sahələri;

- bu hissənin yazılmasında istifadə olunmuş ədəbiyyat siyahısı.

Magistrant IV hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini magistratura təhsilinin ikinci ilinin aprelın 10-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər bu Qaydalara Əlavə 7-yə uyğun hazırlanan Magistr dissertasiyası üzrə IV hesabatın qiymətləndirilməsi blankında verilən meyar göstəriciləri əsasında qiymətləndirməni aparmalı, həmin hesabatı imzalamalı və aprelin 20-dək kafedraya təqdim etməlidir.

4.4. Magistrant müvafiq hesabatı və dissertasiyanın həmin hesabatla əhatə olunan hissəsini bu Qaydaların 3.3.2 - 3.3.5-ci bəndləri ilə müəyyən edilmiş vaxtadək elmi rəhbərə yazılı şəkildə və imzalayaraq təqdim etməli, həmin hesabat və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsi ilə bağlı hazırlıq və məlumatlılıq səviyyəsini nümayiş etdirməyə borcludur.

4.5. Elmi rəhbər hesabatları qiymətləndirməli və nəticəsi barədə magistranta məlumat verməlidir. Hesabatlar elmi rəhbər tərəfindən qiymətləndirilərkən aşağıdakıları araşdırmalıdır:

4.5.1. Hesabatla dissertasiyanın bu hesabatla əhatə olunan hissəsi arasında uyğunluğun olmasını;

4.5.2. Hesabatın və dissertasiyanın aidiyyəti hissəsinin tərtibinin bu Qaydaların müvafiq tələblərinə uyğunluğun olmasını;

4.5.3. Magistrantın hesabat və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsi barədə hazırlıq və məlumatlılıq səviyyəsini.

4.6. Elmi rəhbər bu Qaydaların 3.5.1-ci və 3.5.2-ci bəndlərində

göstərilən tələblərdən ən azı biri üzrə uyğunsuzluq aşkar etdikdə, magistrantı bu barədə bu Qaydaların 1.4.5-ci bəndi ilə müəyyən edilmiş formada məlumatlandırmalıdır. Magistrant elmi rəhbər tərəfindən müəyyən edilən konkret vaxt (3-5 gün) müddəti ərzində zəruri düzəlişləri edərək hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunanhissəsini təkrarən elmi rəhbərə təqdim edə bilər.

Magistrant qeyd olunan müddət ərzində hesabata və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsinə müvafiq əlavə və düzəlişləri edib təqdim etmədikdə, yaxud etdiyi əlavələr və düzəlişlər qənaətbəxş olmadıqda, həmçinin bu Qaydaların 3.5.3-cü bəndində göstərilən tələb yerinə yetirilmədikdə, həmin hesabat elmi rəhbər tərəfindən "0" balla qiymətləndirilir.

4.7. Magistr dissertasiyalarının keyfiyyətinin yüksəldilməsi, eləcə də dissertasiyaların hazırlanması və qiymətləndirilməsi prosesində obyektivliyin təmin edilməsi məqsədi ilə təqdim edilən hesabatların Kafedra tərəfindən monitorinqi aparıla bilər.

4.7.1. Monitorinqin aparılması məqsədi ilə Kafedranın təqdimatı əsasında Magistratura şöbəsi Elmi Şurasının qərarı ilə müvafiq ixtisaslar və ixtisaslaşmalar nəzərə alınmaqla ixtisas rəhbərlərinin rəhbərliyi altında Monitorinq Komissiyaları yaradılır.

4.7.2. Təqdim edilən hesabatlara müvafiq Monitorinq Komissiyalarında baxılır, daha riskli hesab edilən hesabatlar müəyyən edilir və monitorinqə cəlb edilən magistrantların siyahısı tərtib edilir.

4.7.3. Magistrant bir və daha artıq hesabat üzrə monitorinqə cəlb edilə bilər.

4.7.4. Monitorinqlər müsahibə formasında aparılır.

4.7.5. Magistrantın hər bir hesabat üzrə aparılan monitorinqin yeri və vaxtı barədə məlumat almaq hüququ vardır.

4.7.6. Hər bir hesabat üzrə monitorinq hesabatın elmi rəhbər tərəfindən Kafedraya təqdim edilməli olduğu son tarixdən (uyğun

olaraq I hesabat üzrə 25 oktyabr, II hesabat üzrə 25 dekabr, III hesabat üzrə 25 fevral və IV hesabat üzrə 20 aprel) sonrakı 15 iş günü ərzində aparılır.

Kafedra hesabatların Kafedraya təhvil verilməli olduğu son tarixdən sonrakı 3 işgünü ərzində monitorinq qrafikini tərtib edir və bu barədə magistrantlara və onların elmi rəhbərlərinə məlumat verir. Monitorinq qrafikində monitorinqə dəvət olunan magistrantların siyahısı, monitorinqin keçiriləcəyi yer, tarix və vaxt barədə məlumatlar əks olunur.

4.7.7. Aparılan monitorinqlə bağlı magistrantın vəzifələri aşağıdakılardır:

4.7.7.1. Hər bir hesabat üzrə keçirilən monitorinqin yeri və vaxtı barədə məlumat almaq üçün bu Qaydalarnın 3.7.6-ci bəndinin ikinci abzasında göstərilən müddətin sonunadək Kafedraya müraciət etmək;

4.7.7.2. Müvafiq hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini kağız formasında Monitorinq Komissiyasına təqdim etmək;

4.7.7.3. Müvafiq hesabat və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsi barədə məlumatlılıq və hazırlıq səviyyəsini nümayiş etdirmək.

4.7.8. Monitorinq zamanı bu Qaydaların 3.5-ci bəndində göstərilən tələblər üzrə, eləcə də elmi rəhbərin müvafiq qiymətləndirmə meyarları üzrə verdiyi qiymətlərlə hesabatın və bu hesabatla bağlı dissertasiyanın aidiyyəti hissəsinin məzmunu arasında uyğunsuzluqlar aşkar edildikdə, Monitorinq Komissiyası hesabatın yenidən qiymətləndirilməsini aparır və bu barədə müvafiq akt tərtib edir.

Monitorinq Komissiyasının təsdiqlədiyi qiymət hesabat üzrə yekun qiymət kimiqəbul edilir.

Elmi rəhbərlərin monitorinq prosesində iştirakı tövsiyə olunur.

4.7.9. Magistrant üzürlü səbəblərdən təyin olunmuş vaxtda monitorinqdə iştirak etmədikdə, monitorinq tarixindən sonrakı 7 iş günü ərzində təkrar monitorinq müəyyən edilir və həmin monitorinqin vaxtı və yeri barədə magistranta və elmi rəhbərə məlumat verilir.

4.7.10. Heç bir üzürlü səbəb olmadan ilkin monitorinqdə, yaxud bu Qayadaların 3.7.9-cu bəndinə uyğun qaydada müəyyən edilən təkrar monitorinqdə iştirak etməyənmagistrantların müvafiq hesabat üzrə elmi rəhbər tərəfindən qiymətləndirilmiş nəticəsi Monitorinq Komissiyası tərəfindən ləğv olunur və onun həmin hesabatla bağlı müvafiq fənn üzrə akademik borcu yaranır.

4.8. Dissertasiyanın Kafedraya təhvil verilməsi aşağıdakı qaydada həyata keçirilir:

4.8.1. Bu Qaydaların 3.2.1-ci bəndində göstərilən fənlər üzrə akademik borcu olmayan magistrant dissertasiyanın bu Qaydaların tələblərinə uyğun şəkildə tərtib edilmiş yazılı nüsxəsini və dissertasiyanın qısa məzmununu əks etdirən referatı aprelin 20-dək elmi rəhbərə şəxsən təqdim etməlidir.

4.8.2. Elmi rəhbər dissertasiyanın tam məzmunu ilə tanış olmalı, bu Qaydalara Əlavə 16-ya uyğun hazırlanan Magistr dissertasiyasının elmi rəhbər tərəfindən qiymətləndirməsi blankında verilən meyar göstəriciləri əsasında dissertasiyanın qiymətləndirilməsini apararaq müdafiəyə tövsiyə olunub-olunmaması barədə qeydini etməlidir. Elmi rəhbər Magistr dissertasiyasının qiymətləndirilməsi blankının bir nüsxəsini magistratura təhsilinin ikinci ilinin aprelin 30-dək kafedraya, digərini isə magistranta təqdim etməlidir.

4.8.3. Magistrant magistratura təhsilinin ikinci ilinin aprelin 30-dək elmi rəhbər tərəfindən imzalanmış dissertasiyanı cildlənmiş formada və elektron variantda (CD diskdə) elmi rəhbər tərəfindən imzalanan Magistr dissertasiyasının elmi rəhbər tərəfindən qiymətləndirməsi blankı ilə birlikdə Kafedraya təqdim etməlidir.

4.8.4. Kafedra zəruri hallarda dissertasiyanın qəbulunu 30 aprel tarixindən sonrakı 10 iş günü ərzində müəyyən etdiyi qrafik üzrə də apara bilər.

4.8.5. Bu Qaydaların 3.8.3-cü və 3.8.4-cü bəndində qeyd edilmiş tarixlərdən sonra Kafedraya təqdim edilən dissertasiyaların plagiat yoxlamasından keçirilməsi və müdafiəsi aidiyyəti normativ aktların tələblərinə müvafiq olaraq növbəti semestrlərə keçirilir.

## 5. Magistr dissertasiyanın tərtibi

5.1.1 Dissertasiyanın mətni A4 formatında, səhifədə soldan – 30 mm, sağdan – 10 mm, yuxarı və aşağıdan – 20 mm boş sahə saxlanılmaqla, Azərbaycan dilində latın, rus dilində kiril və ingilis dilində ingilis (ABŞ) əlifbası, "Times New Roman" 14 şrifti ilə 1,5 sətirarası intervalla qara rənglə yazılır.

5.1.2. Dissertasiyanın struktur bölmələrinin adları böyük hərflərlə, tünd qara rənglə yazılır.

5.1.3 Dissertasiyada şəkillər, cədvəllər, qrafiklər rəngli, A3 (297 mm x 420 mm) formatında verilə bilər və hər bir A3 formatlı səhifə bir səhifə kimi qəbul edilir.

5.1.4. Dissertasiyanın titul səhifəsi nömrələnmir, növbəti səhifəsi "2" rəqəmindən başlayaraq, digər bütün səhifələri (dissertasiyanın struktur bölmələri, o cümlədən istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələr) ərəb rəqəmləri ilə ardıcıl nömrələnir.

5.1.5. Dissertasiya səhifələrinin sıra nömrəsi hər bir səhifənin aşağı hissəsində, boş sahənin sağında yazılır.

5.1.6. Dissertasiya A4 formatında, həcmi yüz on –yüz otuz min işarə (şəkillər, cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə), olmalıdır. Humanitar elmlər üzrə dissertasiyanın həcmi iyirmi faizədək artıq, dəqiq və təbiət elmləri üzrə iyirmi faizədək az ola bilər.

5.1.7. Dissertasiyanın bir səhifəsində yazılan işarələrin sayını kompüter vasitəsilə dəqiq müəyyən etmək mümkün olmadıqda, bir səhifədə yazılan mətn iki min işarəyə bərabər tutulur.

5.1.8. Dissertasiyanın yazılışı zamanı iddiaçı istifadə etdiyi materialların mənbələrinə və müəlliflərinə mütləq istinad etməlidir. Mətindəki istinaddan sonra kvadrat mötərizədə əsərin ədəbiyyat siyahısındakı nömrəsi, cild (çoxcildli əsərlər üçün) və müvafiq səhifə(lər) verilir. Məsələn, [54, s.162], [155, c.2, s.82-83], [54, s.162; s.23], və s.

5.1.9. Dissertasiyanın mətnində iddiaçı tərəfindən alınmış hər bir nəticənin onun hansı əsərində çap olunduğuna dair istinad verilməsi tövsiyə olunur.

5.1.10. Ədəbiyyat və digər informasiya mənbələrindən götürülərək heç bir dəyişiklik edilmədən dissertasiyaya daxil edilən cümlələr, cədvəl, şəkil, diaqram, düstur və digər ifadə vasitələri birbaşa istinad hesab olunur. Birbaşa istinadın məzmunu 40 sözdən az olduqda dırnaq („ ”) işarələri içində yazılır. 40 sözdən çox olan istinadlar 12 ölçülü *italic* şriftlə, ayrıca abzas formasında verilir. Belə abzas sağdan və soldan ümumi mətnə nisbətən 1 sm qısa olaraq yazılır. Eynilə köçürülən parçadan bəzi cümlə və ya ifadələrin çıxarılması halında, çıxarmanın edildiyi yerə üç nöqtə (...) qoyulur.

5.1.11. İstinad olunan mənbədəki məlumatların magistrant tərəfindən ümumiləşdirilməsi və öz fikirləri ilə ifadə edilməsi dolayı istinad hesab olunur. Burada əsas məsələ magistrantın məlumatı öz cümlələri ilə və mətnin bütövlüyünü pozmadan göstərməsidir. Dolayı istinadlarda dırnaq işarələri və ya sıxışdırılmış abzaslardan istifadə edilmir.

5.1.12. Magistrant dissertasiyada istinad etdiyi müəlliflərin fikirlərini müzakirə üslubunda təqdim etməyi bacarmalıdır. Dissertasiyanı oxuyan hər kəs istinadların başlanğıcı və sonunu izləyə bilməlidir.

5.1.13. Dissertasiyanın mətnindəki bütün məlumatlar aydın görünməlidir.

5.1.14. Dissertasiya işi tikilir və qalın üz qabığında təqdim edilir.

**5. 2. Dissertasiyanın strukturu**

Dissertasiya tərtib edilərkən onun strukturunda aşağıdakı ardıcıllıq gözlənilməlidir:

- Titul səhifəsi; (əlavə 8)
- Mündəricat;
- Giriş;
- Dissertasiyanın əsas məzmunu (fəsil, paraqraf, bənd);
- Nəticə;
- İstifadə edilmiş ədəbiyyat siyahısı;
- Əlavələr;
- İxtisarların və şərti işarələrin siyahısı (dissertasiyada olduqda).

**5.3. Titul səhifəsi**

Titul səhifəsi təlimatın əlavə 8 uyğun tərtib edilir.

**5.4. Mündəricat**

Mündəricatda "Mündəricat" sözü başlıq kimi göstərilirvə nömrələnmir.

5.2.4. Mündəricatda dissertasiyanın struktur bölmələrinin adları və onların başlanğıc səhifəsinin nömrələri əks olunur.

5.2.3. Çoxcildli dissertasiyalarda mündəricat birinci cilddə verilir.

5.2.4. Dissertasiyanın struktur bölmələrinin mündəricatdakı adları ilə mətndəki adları eyni olmalıdır.

**5.5. Giriş**

5.5.1. Girişdə "Giriş" sözü başlıq kimi göstərilir və nömrələnmir.

5.5.2. Dissertasiyanın girişində aşağıda qeyd olunan yarımbaşlıqlar tünd qara rənglə yazılmalı və abzasdan başlanmalıdır:

- Mövzunun aktuallığı və işlənmə dərəcəsi;
- Tədqiqatın məqsəd və vəzifələri;
- Tədqiqat metodları;
- Tədqiqatın elmi yeniliyi;
- Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti;
- Aprobasiyası və tətbiqi;
- Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı;

-Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.

**5.6. Dissertasiyanın əsas məzmunu (fəsil, paraqraf, bənd)**

5.6.1. Dissertasiyanın əsas məzmunu fəsillərə və paraqraflara bölünür. Dissertasiyanın paraqrafları bəndlərə də bölünə bilər.

5.6.2. Dissertasiyanın hər bir fəsli rum rəqəmi ilə nömrələnir. Məsələn, I Fəsil; II Fəsil və s.

5.6.3. Dissertasiyanın fəsilləri yeni səhifədən başlanmalıdır.

5.6.4. Fəsillər daxilində paraqraflar ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir. Paraqrafın nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin və paraqrafın nömrəsindən ibarətdir. Nömrənin sonunda nöqtə işarəsi qoyulur.0 0M0ə0s0ə0l0ə0n0,0 020.050.0 – yəni ikinci fəslin beşinci paraqrafı.

5.6.5. Paraqraf daxilində bəndlər olduqda onlar ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir. Bəndin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqafın və bəndin nömrəsindən ibarətdir. Nömrənin sonunda nöqtə işarəsi qoyulur. Məsələn, 2.5.1. – yəni ikinci fəslin beşinci paraqrafının birinci bəndi.

5.6.6. Fəsillərin adları mətndən üç intervalla, paraqraf adları isə mətndən iki intervalla ayrılır.

5.6.7. Fəsillərin adları mətnə simmetrik şəkildə, böyük hərflərlə, tünd qara rənglə, paraqrafların adları isə abzasdan sətri hərflərlə (birinci hərf istisna olmaqla) tünd qara rənglə yazılmalıdır.

5.6.8. Fəsillərin adlarının yazılışında sözlərin hecalara bölünərək sətirdən-sətrə keçirilməsinə yol verilmir. Fəsil və paraqrafların adlarının altından xətt çəkilmir və sonunda nöqtə qoyulmur.

5.6.9. Fəsil və paraqrafların adları iki və ya daha çox cümlədən ibarət olduqda, onların arasında nöqtə qoyulur.

**5.7. Nəticə**

5.7.1. Nəticədə "Nəticə" sözü başlıq kimi göstərilirvə nömrələnmir. 4.7.2. Nəticədə əsas elmi yeniliklər göstərilməklə onların əhəmiyyəti əsaslandırılmalıdır.

5.7.3. Tətbiqi əhəmiyyəti olan dissertasiyada iddiaçının əldə etdiyi elmi nəticələrin praktikada tətbiqi barədə məlumat, nəzəri əhəmiyyəti olan dissertasiyada isə elmi nəticələrdən istifadə ilə əlaqədar tövsiyələr göstərilməlidir.

**5.8. İstifadə edilmiş ədəbiyyat siyahısı**

5.8.1. İstifadə edilmiş ədəbiyyat siyahısında "İstifadə edilmiş ədəbiyyat siyahısı" sözləri başlıq kimi göstərilirvə nömrələnmir. 4.8.2. İstifadə edilmiş ədəbiyyat siyahısında əvvəlcə Azərbaycan dilində, sonra isə türk, rus, ingilis, fransız, alman, ərəb və s. dillərdə olan mənbələr hər bir dilə uyğun əlifba sırası ilə düzülür və ardıcıl olaraq nömrələnir.

5.8.3. İstifadə edilmiş ədəbiyyat siyahısında, əsasən son 10 ildə nəşr edilmiş ədəbiyyatlar öz əksini tapmalıdır.

5.8.4. Biblioqrafik məlumatlar əlifba sırası ilə müəllifin soyadı, adı, atasının adı və ya nəşrin adı ilə verilir.

5.8.5. Dissertasiyada istifadə olunan mənbələrin biblioqrafik təsvirində aşağıdakı şərti işarələrdən istifadə edilir: . nöqtə , vergül - defis – tire : qoşa nöqtə / çəpəki xətt // qoşa çəpəki xətt ( ) mötərizə [] kvadrat mötərizə

5.8.6. İstifadə edilmiş ədəbiyyat siyahısında ədəbiyyatın biblioqrafik təsviri bu Qaydaya Əlavə 13 ilə nəzərdə tutulan nümunələrə uyğun tərtib edilir.

**5.9. Əlavələr**

5.9.1. Əlavələrdə "Əlavələr" sözü başlıq kimi göstərilirvə nömrələnmir.

5.9.2. Əlavələr ümumi işin davamı kimi səhifələnməlidir.

5.9.3. Əlavələr müstəqil cild şəklində də verilə bilər. Əlavələr müstəqil cild olduqda titul səhifəsi olmalı və ayrıca nömrələnməlidir.

4.9.4. Əlavələr "Times New Roman" 12 şrifti ilə 1,0 sətirarası intervalla yazılır.

5.9.5. Dissertasiyanın mətnində bütün əlavələrə istinad edilməlidir.

**5.10. Şəkillər**

5.10.1. Şəkillər dissertasiyanın mətnində ilk dəfə istinad edilən yerdə, növbəti səhifədə və ya əlavələrdə verilə bilər.

5.10.2. Şəkillər elə yerləşdirilməlidir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdə onlara rahat baxmaq mümkün olsun.

5.10.3. Dissertasiyada şəkillər ardıcıl nömrələnir.

5.10.4. Dissertasiyada bir şəkil olduqda, o nömrələnmir, "Şəkil" sözü və şəklin adı yazılır.

5.10.5. "Şəkil" sözü, onun nömrəsi və adı şəklin altında yazılır. "Şəkil" sözü və şəklin adı sətri hərflərlə (birinci hərf istisna olmaqla), tünd qara rənglə yazılır və altından xətt çəkilmir. Şəkillərin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və şəklin ardıcıl nömrələrindən ibarətdir. Məsələn, Şəkil 1.2.3 – yəni, birinci fəslin ikinci paraqrafının üçüncü şəkli.

5.10.6. Dissertasiyaya daxil edilən şəkillər keyfiyyətli olmalıdır.

4.10.7. Dissertasiyada kompüter qrafikası ilə yerinə yetirilmiş şəkillərdən və orijinal fotolardan istifadə etmək olar.

5.10.8. A4 formatından kiçik olan fotolar standart ağ vərəqə yapışdırılmalıdır.

5.10.9. Qeyri-standart ölçülü şəkillər qatlandıqdan sonra A4 formatına uyğun olmalıdır.

5.10.10. Dissertasiyanın mətnində olan şəkillərin hər birinə istinad edilir.

**5.11. Cədvəllər**

5.11.1 Cədvəllər dissertasiyanın mətnində ilk dəfə istinad edilən yerdə, növbəti səhifədə və ya əlavələrdə verilə bilər.

5.11.2. Cədvəllər elə yerləşdirilməlidir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdən sonra onları rahat oxumaq mümkün olsun.

5.11.3. Dissertasiyada cədvəllər ardıcıl nömrələnir.

5.11.4. Dissertasiyada bir cədvəl olduqda, o nömrələnmir, "Cədvəl" sözü və cədvəlin adı yazılır.

5.11.5. "Cədvəl" sözü, onun nömrəsi və adı cədvəlin üstündə sağ küncdə yazılır. "Cədvəl" sözü və cədvəlin adı sətri hərflərlə (birinci hərf istisna olmaqla), tünd qara rənglə yazılır və altından xətt çəkilmir. Cədvəlin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və cədvəlin ardıcıl nömrələrindən ibarətdir. Məsələn, Cədvəl 1.2.3 – yəni, birinci fəslin ikinci paraqrafının üçüncü cədvəli. 4.11.6. Cədvəl iki və daha çox səhifədə yerləşdikdə, "Cədvəl" sözü, onun nömrəsi və adı cədvəlin üstündə yuxarı sağ hissədə bir dəfə göstərilir. Cədvəlin qalan hissələrinin müvafiq yerlərində "ardı" sözü yazılır. Dissertasiyada bir neçə cədvəl olduqda "ardı" sözünün qarşısında "Cədvəl" sözü, onun nömrəsi qeyd edilir. Məsələn, Cədvəl 1.2.3-ün ardı.

5.11.7. Cədvəlin mətni 12 ölçülü şriftlə, 1 interval yazılmalıdır.

5.11.8. Sətirlərin və sütunların sayı çox olan cədvəlləri hissələrə bölüb bir neçə səhifədə yerləşdirdikdə sətirlərdəki bütövlük gözlənilməlidir.

5.11.8. Dissertasiyanın mətnində olan cədvəllərin hər birinə istinad edilir. Cədvəlin altında cədvəldəki məlumatların götürüldüyü mənbə qeyd olunur. Cədvəldəki məlumatlar müəllifin apardığı

tədqiqatın nəticələri olduqda, mənbə kimi “müəllifin hesablamaları” sözləri qeyd edilir.

### 5.12. Qrafiklər

5.12.1. Qrafiklər dissertasiyanın mətnində ilk dəfə istinad edilən yerdə, növbəti səhifədə və ya əlavələrdə verilə bilər.

5.12.2. Qrafiklər elə yerləşdirilməlidir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdə onlara rahat baxmaq mümkün olsun.

5.12.3. Dissertasiyada qrafiklər ardıcıl nömrələnir.

5.12.4. Dissertasiyada bir qrafik olduqda, o nömrələnmir, “Qrafik” sözü və qrafikin adı yazılır.

5.12.5. “Qrafik” sözü, onun nömrəsi və adı qrafikin altında yazılır. “Qrafik” sözü və qrafikin adı sətri hərflərlə (birinci hərf istisna olmaqla), tünd qara rənglə yazılır və altından xətt çəkilmir. Qrafiklərin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və qrafikin ardıcıl nömrələrindən ibarətdir. Məsələn, Qrafik 1.2.3 – yəni, birinci fəslin ikinci paraqrafının üçüncü qrafiki.

5.12.6. Dissertasiyanın mətnində olan qrafiklərin hər birinə istinad edilir.

### 5.13. Formullar (tənliklər)

5.13.1. Dissertasiyanın mətnində formulların (tənliklərin) sayı birdən çox olduqda ardıcıl nömrələnir.

5.13.2. Formulların (tənliklərin) nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və formulun ardıcıl nömrələrindən ibarətdir.

5.13.3. Formulların (tənliklərin) nömrəsi onunla bir səviyyədə səhifənin sağ tərəfində mötərizənin içində yazılır. Məsələn, (3.1.2) – yəni, üçüncü fəslinbirinci paraqrafının ikinci formulu (tənliyi).

5.13.4. Formulda (tənlikdə) rast gəlinən simvolların mənası və ədədi əmsalların izahı, onların formuldakı (tənlikdəki) yerləşmə

ardıcıllığı nəzərə alınraq, dissertasiyanın mətnində formuldan (tənlikdən) sonra və ya bilavasitə formulun (tənliyin) altında verilir. İzahatın birinci sətri "burada" sözündən başlamalıdır. Hər bir simvolun mənası və ədədi əmsalın izahı yeni sətirdə yerləşdirilir.

5.13.5. Formullar (tənliklər) mətndən intervalla ayrılır. Hər formulun üstündə və altında bir, zəruri hallarda isə iki interval saxlanılır. Formul (tənlik) bir sətrə yerləşmədikdə, onun ardı bərabərlik (=) və ya üstəgəl (+), çıxma (-), vurma (x), bölmə (:) işarələrinin hər hansı birindən sonra yeni sətrə keçirilir. Bu halda növbəti sətrin başlanğıcında müvafiq işarə təkrar yazılır.

### 5.14 İxtisarlar və şərti işarələr

5.14.1. Dissertasiyada geniş yayılmamış ixtisarlardan, şərti işarələrdən, spesifik terminlərdən, yeni simvollardan və s. istifadə edildikdə bu barədə müvafiq izahatlardan ibarət siyahı verilir.

5.14.2. Siyahı sütun şəklində yazılır, sütunun sol tərəfində əlifba sırası ilə ixtisarlar, şərti işarələr, spesifik terminlər, simvollar, sağ tərəfində onun dəqiq açılışı və mənası verilir.

5.14.3. Dissertasiyada xüsusi ixtisarlar, şərti işarələr, spesifik terminlər, simvollar üç dəfədən az təkrar edildikdə siyahı tərtib edilmir, onların dəqiq açılışı və mənası mətndə birinci dəfə qeyd olunduğu yerdə verilir.

## 6. Dissertasiyanın müdafiəyə hazırlanması və qiymətləndirilməsi

6.1. Magistrant müdafiə üçün dissertasiyanın qısa məzmununu əks etdirən referat tərtib etməli və onu imzalamalıdır. Referat dissertasiyanın yazıldığı dildə, A4 vərəqdə, 12 ölçülü Times New Roman şrifti ilə, 1,5 intervalla yazılmalı və onun həcmi 3 səhifədən çox olmamalıdır.

6.2. Dissertasiyanın ilkin müdafiəsi Kafedrada yaradılan ilkin müdafiə qrupunda Kafedra tərəfindən tərtib olunmuş qrafik üzrə

həyata keçirilir. Kafedra magistrantları ilkin müdafiə qrafiki barədə məlumatlandırır. İlkin müdafiənin məqsədi dissertasiyanın məzmun və tərtibatının, dissertasiyanı müşayiət edən sənədlərin müəyyən olunmuş tələblərə uyğunluğunun yoxlanılması, eləcə də magistrantın əsas müdafiəyə hazırlığının dəstəklənməsidir. Magistrant ilkin müdafiə tarixindən azı 3 gün əvvəl aşağıdakı sənədləri Kafedraya təqdim etməlidir:

- ərizə (əlavə 14);
- magistr dissertasiyasının elmi rəhbər tərəfindən qiymətləndirilməsi blankı;
- magistr dissertasiyası – 1 nüsxə (müdafiədən sonra Kafedrada saxlanılır);
- referat – İxtisaslaşdırılmış Şura üzvlərinin sayı qədər nüsxədə çap edilir və müdafiədən sonra bir nüsxəsi kafedrada saxlanılır;
- magistrantın fərdi iş planının surəti (Əlavə 9);
- dissertasiya üzrə nəşr olunmuş elmi məqalələrin surəti (məqalələr AAK-ın rəsmi saytında iqtisadiyyat üzrə qeyd edimiş jurnallarda və beynəlxalq elmi jurnallarda nəşr oluna bilər. Beynəlxalq və yerli elmi konfransların materiallarında nəşr edilmiş məqalə və ya tezislərin surətinə təşkilatçılar tərəfindən təsdiq edilmiş iştirak sertifikatının əsli də əlavə olunmalıdır).

Kafedra tərəfindən müdafiəyə buraxılması tövsiyə olunan dissertasiyalar Kafedra iclasından çıxarış və digər aidiyyəti sənədlərlə birlikdə baxılması üçün Magistratura şöbəsinə təqdim olunur.

Magistratura şöbəsi dissertasiyanı müdafiəyə buraxmağı mümkün hesab etmədikdə, bu məsələyə kafedra müdiri, proqram rəhbəri və elmi rəhbərin iştirakı ilə baxılır və müvafiq normativ aktların tələblərinə uyğun olaraq qərar qəbul olunur.

6.3. Müdafiəyə buraxılmış dissertasiyalar Kafedra tərəfindən müdafiəyə ən azı 15 gün qalmış rəsmi rəyçiyə göndərilir.

